# QAFQAZDA SÜLH VƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ

**Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinə qovuşsa da, 1993-cü ilə qədər dövlətçiliyinin əsasları yaradılmamışdı. Ermənistanın hərbi təcavüzü nəticəsində ölkənin 20 faizi işğal edilmişdi. İqtisadiyyat çökmüşdü, insanlar yeməyə hətta çörək tapmırdılar, ölkədə ciddi qeyri-sabitlik hökm sürürdü, adamlar sərbəst küçəyə çıxa bilmirdilər. Azərbaycan birtərəfli xarici siyasət aparırdı. Ölkəni belə mürəkkəb vəziyyətdən çıxarmaq üçün iradəli liderə ehtiyac vardı. Heydər Əliyev öz müdrikliyi, cəsarəti, millətinə, xalqına, adət-ənənələrə bağlılığı ilə Azərbaycan xalqının sevgisini qazanmışdı. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Heydər Əliyev müstəqilliyi, xalqımızın, dövlətimizin maraqlarını qoruyacaq və inkişaf ilə bağlı ən düzgün qərar verəcəkdir. Qurtuluş yolu üçün 1993-cü il iyunun 15-də xalq öz liderini seçdi. Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlətə çevrildi.**

Cənubi Qafqazda sülh və təhlükəsizliyi müdafiə üçün Heydər Əliyev üç əsas məsələyə diqqət ayırmışdır. Birincisi, Ermənistan-Azərbaycan, keçmiş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə təşəbbüslər göstərmişdir. İkincisi, Gürcüstanla münasibətlərin yüksək səviyyədə olmasını diqqət mərkəzində saxlamışdır. Üçüncüsü, Türkiyənin Qafqazda iqtisadi və siyasi proseslərə cəlb edilməsi istiqamətində fəaliyyət göstərmişdir.

Rusiyanın, ABŞ-ın, Fransanın himayədarlıq etdiyi Ermənistanı işğal etdiyi Azərbaycan ərazilərindən qovmaq üçün güclü dövlət qurmaq lazım idi. Ulu öndər Heydər Əliyev güclü dövlət yaratmaq üçün ilk növbədə ölkədə daxili sabitlik yaratdı. Güclü ordu yaradılması üçün iqtisadiyyatın gücləndirilməsi lazım idi. Ölkədə vəziyyətin sabitləşməsinə nail olmadan isə xarici investorları cəlb etmək, iri neft şirkətləri ilə müqavilələr imzalamaq, iqtisadi böhran və tənəzzül mərhələsini adlamaq mümkün deyildi. 1994-cü il mayın 8-də Bişkekdə cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan "Bişkek protokolu" imzalandı, atəşkəs rejimini möhkəmləndirmək barədə saziş 1994-cü il 12 may tarixdə qüvvəyə mindikdən sonra cəbhə xəttində hərbi əməliyyatlar dayandırıldı.

İqtisadiyyatda ciddi islahatlara başlanıldı, kənd təsərrüfatı inkişaf etdirildi, torpaq bölgüsü həyata keçirildi, neft strategiyası sahəsində dünyanın 11 ölkəsinin 13 ən məşhur neft şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi" imzalandı. 1996-cı ildə "Torpaq islahatı haqqında" qanun qəbul ediləndən sonra torpaqlar kənd camaatına paylandı.

Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi istiqamətində Heydər Əliyev qonşu dövlətlərlə münasibətləri inkişaf etdirməyə diqqət ayırdı. Dili bir, kökü bir qardaş dövlət kimi Türkiyəyə arxalanan və onun Qafqazda nüfuzunun möhkəmlənməsinə çalışan Heydər Əliyev digər qonşu dövlətlərlə, o cümlədən BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biri olan, qərarların qəbul edilməsində veto hüquqlu Rusiyaya qarşı da balanslaşdırılmış siyasət yürütdü və münasibətləri yaxşılaşdırdı, Rusiyadan, Ukraynadan taxıl məhsulları alındı. Azərbaycanın MDB-yə daxil olmaması Rusiyanı qıcıqlandırırdı. Heydər Əliyev 1993-cü il iyun ayında Azərbaycan Respublikasına rəhbərlik etməyə başladıqdan sonra ilk addımlardan biri MDB-yə daxil olmaq oldu. Ümummilli lider Respublikada MDB-yə daxil olmaq üçün psixoloji mühit yaratmaq məqsədi ilə bir neçə ay işləməli oldu. Çünki ölkəmizdə MDB-yə qarşı münasibət çox mənfi idi. Bunun da səbəbləri var idi. MDB-də aparıcı dövlət olan Rusiya Ermənistanın işğalçılıq siyasətini müdafiə edirdi, 1990-cı ildə sovet qoşunlarının Bakıya yeridilməsi, əhalinin yanvarın 20-də və fevralın sonlarınadək qətlə məruz qalması, Xocalı soyqırımında Ermənistana yardım edən sovet alayının iştirakı insanlarda belə fikir yaratmışdı ki, Rusiya ilə münasibətlər yaradılmamalı və onun yaratdığı təşkilatla əməkdaşlığın heç bir əhəmiyyəti olmayacaq. Bu məsələ ictimaiyyət, əmək kollektivləri, politoloqlar, ziyalılar tərəfindən müzakirə edildi və belə nəticə əldə edildi ki, Azərbaycanın MDB tərkibində olması zərurətdir. 1993-cü il sentyabrın 24-də Heydər Əliyev Moskvada Azərbaycanın MDB-yə daxil olması haqqında sənədləri imzaladı.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, ərazi bütövlüyünün pozulması, eləcə də beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı kimi beynəlxalq hüquq prinsipinin reallaşdırılmaması sülh və təhlükəsizliyi pozan əsas amil idi. Prezident Heydər Əliyev 1993-2000-ci illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması məsələsini ABŞ ilə 18, Fransa ilə 16, Rusiya ilə 28, Türkiyə ilə 78 dəfə müzakirə etmiş, Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir. Ümummilli lider ATƏM-in səmərəsiz fəaliyyətinə öz münasibətini açıq bildirirdi. Məsələn, ozamankı ATƏT-in Minsk konfransının sədri Mario Rafaelli xarici informasiya agentlərinin guya ermənilərin Ağdamı işğal etməsi barədə məlumat yayması ilə əlaqədar Bakıya gəlişini təxirə salması barədə Prezident Heydər Əliyev belə demişdir: "…əgər siyasi və diplomatik addımlar yanlış informasiya əsasında qəbul edilibsə bu, bizi sadəcə təəccübləndirir… ATƏM-in bu hərəkətindən sonra biz Ermənistanla təkbətək mübarizə aparmağa məcburuq, bu da problemin sülh yolu ilə həll edilməsinə zərbə vurur, regionda hərbi əməliyyatları qızışdırır...".

Cənubi Qafqazda sülh və təhlükəsizlik yaratmaq üçün Heydər Əliyevin önəm verdiyi ikinci məsələ Gürcüstanla münasibətlərin yüksək səviyyədə olması idi. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze ilə 1996-cı il martın 6-da "Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında Tbilisi Bəyannaməsini imzalamışdır. Heydər Əliyevin təklifi ilə imzalanmış Bəyannamədə aşağıdakı müddəalar irəli sürülürdü: dövlətlərin suverenliyinin beynəlxalq tanınmış sərhədlər hüdudlarında bərpa edilməsi, onların ərazi bütövlüyünün təmin olunması, qaçqınların təhlükəsiz və təminatlı daimi yaşayış yerlərinə qaytarılması; İnsan hüquq və azadlıqlarına, o cümlədən milli azlıqlara mənsub olan şəxslərin hüquqlarına həmişə və hər yerdə hörmət edilməsi; nəqliyyat və digər kommunikasiya vasitələrinin daha da inkişafı və onların təhlükəsizliyi sahəsində əməkdaşlıq; Qafqazın nadir təbiətinin mühafizəsi məsələlərində, texnogen, təbii fəlakətlərin və silahlı münaqişələrin nəticələrinin aradan qaldırılmasında, beynəlxalq turizmin inkişafında hərtərəfli əməkdaşlıq; etnik və dini dözümlülük; Qafqazın - dünyanın ən sərvətli qoruğunun mədəni və dil rəngarəngliyinə qayğılı və hörmətli münasibət; beynəlxalq layihənin fəal dəstəklənməsi, xarici investisiyaların cəlb edilməsi və təşviqi.

Heydər Əliyev Bəyannaməni imzalayarkən demişdir: "Qafqaz millətlərarası münaqişələrdən, qeyri-sabitlikdən əziyyət çəkir, bizim başlıca vəzifəmiz regionda sülh və təhlükəsizliyi möhkəmlətməkdir. Bizim imzaladığımız bəyannamə hamı üçün açıqdır və biz ümid edirik ki, bizim ölkələr və qonşu regionun ölkələri ona qoşulacaqlar, kim bəyannaməni rədd edirsə, o, Qafqazda münaqişələrin tərəfdarı kimi özünü göstərir".

1997-ci il 18 fevral tarixdə Azərbaycan və Gürcüstan arasında münasibətləri daha da inkişaf etdirmək üçün digər bir bəyannamə - "Azərbaycan Respublikası və Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşməsi haqqında" bəyannamə qəbul edildi.

Hər iki bəyannamə Qafqazda sülh və təhlükəsizliyin, sabitliyin yaradılmasına yönəldilmişdir.

Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Bakı-Tbilisi-Ceyhan neft boru kəməri nəinki Cənubi Qafqazın, həm də Avropanın təhlükəsizliyinə imkan verir. Bölgədə təcavüzə, separatçılığa son qoymağa çalışan Heydər Əliyev qonşu Gürcüstanın ərazisindən keçəcək bu boru kəmərinin dost ölkənin də iqtisadi tərəqqisində, həmçinin regionda sülh və sabitlik yaranmasında əhəmiyyətli olacağını bildirmişdir. İqtisadi xarakterlə yanaşı, siyasi xarakter daşıyan Bakı-Tbilisi-Ceyhan neft boru xətti Azərbaycanı, Gürcüstanı, Türkiyəni bir-biri ilə daha sıx birləşdirərək regionda sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı oldu. Trabzonda keçirilən görüşdə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında Terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər ağır cinayətlərə qarşı mübarizə haqqında sazişin, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və təbii qaz boru xətlərinin təhlükəsizliyi haqqında işbirliyi anlaşmasının imzalanması bölgədə sülh və təhlükəsizliyə hüquqi əsas verdi.

Heydər Əliyev İranla da münasibətlərin yaxşılaşdırılmasına önəm verirdi. 1991-ci ildə Sovet İttifaqının dağılması və sahil dövlətlərinin sayının 2-dən 5-ə qədər artması və Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin müqaviləsi" bağlandıqdan sonra Xəzəryanı dövlətlər tərəfindən Xəzərin statusu məsələsi ortaya atıldı. İran Xəzər dənizinin quru sərhədlərindən başlayaraq dövlətlər arasında orta xətt boyunca bölüşdürülməsinin qəti əleyhinə idi, Xəzərin 5 yerə bölünməsini təklif edirdi. Digər 4 Xəzəryanı dövlət - Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan İranın bu mövqeyini dəstəkləmirdilər. Xəzərin statusu ilə bağlı bir çox danışıqlar oldu. Nəhayət 12 avqust 2018-ci il tarixində Aktau limanında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalandı.

Heydər Əliyev, həmçinin Rusiya ilə yanaşı, BMT Təhlükəsizlik Şurasının veto hüquqlu digər daimi üzvləri olan Fransa, Böyük Britaniya, Çin, ABŞ-a rəsmi səfərlər etdi, Azərbaycanın xəritəsini göstərərək ədalətli mövqeyini aydınlaşdırdı, sənədlər imzalandı.

Ulu öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri Türkiyə ilə münasibətlərin milli köklər, qardaşlıq zəminində qurulması oldu. Ümummilli liderin "Bir millət, iki dövlət" ifadəsi, Prezident Süleyman Dəmirəllə səmimi şəxsi dostluğu Azərbaycan və Türkiyə xalqının bir-birinə rəğbətini artırdı. Heydər Əliyev bildirirdi ki, Azərbaycanın regionda və dünyada dayağı dili bir, qanı bir qardaş Türkiyə dövləti ola bilər və bunu Vətən müharibəsində Türkiyənin Azərbaycanı sonadək mənəvi və siyasi cəhətdən dəstəkləməsi, Azərbaycan xalqında düşmənə qarşı mübarizədə daha da ruh yüksəkliyi, qələbəyə inam yaratması da sübut etdi. Azərbaycan beynəlxalq aləmdə öz möhkəm yerini tutdu, haqq səsini dünya birliyinə çatdırdı.

Azərbaycan ilə Türkiyənin iqtisadiyyatının bir-birinə daha da yaxınlaşmasını məqsədəuyğun hesab edən Heydər Əliyev Türkiyənin iş adamlarını daha çox Azərbaycana sərmayə qoymağa çağırırdı. 1994-cü ildən sonra hüquq-müqavilə bazasının təkmilləşdirilməsi və neft strategiyasının həyata keçirilməsi istiqamətində ciddi addımların atılması, "Əsrin müqaviləsi"nin bağlanması Azərbaycan dövlətinə güvən yaratdı. O vaxta qədər Türkiyənin iş adamları Mərkəzi Asiyaya, Rusiyaya sərmayə qoyurdular, amma Azərbaycana yaxın gəlmirdilər. Heydər Əliyev neftin və qazın ixracı üçün boru xəttinin Türkiyədən keçməsinə həmişə əhəmiyyət vermişdir və buna nail oldu. Rusiya Bakı-Novorossiysk neft kəmərinin ana xətt olmasına çalışırdısa, Avropa Birliyi dövlətləri Bakı-Supsa neft kəmərinin ana xətt olmasını istəyirdilər. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri barədə imzalanmış saziş Azərbaycan üçün çox əhəmiyyətli olduğu kimi, boru kəmərinin Türkiyədəki boğazların təhlükəsizliyini təmin etmək və sərmayə götürülməsi baxımından qardaş ölkə üçün də böyük əhəmiyyəti vardır. Qərb dövlətləri Bakı-Ceyhanın baha başa gələcəyini, Bakı-Supsanı genişləndirməyi və nefti Bakı-Supsa vasitəsilə göndərməyi təklif edirdilər. Heydər Əliyev Süleyman Dəmirəllə danışıb ona bildirdi ki, tankerləri Bosfordan daha buraxmayacağını Qərb dövlətlərinə bildirsin. Ümummilli liderin məqsədi o idi ki, bu boru xətti Türkiyədən keçsin, Ceyhana getsin, tankerlər daha dənizdən, Bosfordan keçməsin, gəlib nefti Ceyhandan götürsünlər. Dostu Süleyman Dəmirəllə söhbətlərində Türkiyənin qaza çox ehtiyacı olduğunu bilən Heydər Əliyev qazın da Türkiyəyə ixracına çalışırdı və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin çəkilişi ilə buna nail oldu. Heydər Əliyev Xəzər dənizindən enerji daşıyıcılarının hasil edilməsi və onları dünya bazarlarına çıxaracaq infrastrukturların yaradılmasının türk dünyasını birləşməsində bir addım olduğunu bildirirdi. Boru xəttinin Gürcüstan ərazisindən də keçməsi bölgədə təhlükəsizlik yaradırdı.

Heydər Əliyev Azərbaycan Ordusunun inkişafına xüsusi diqqət ayırdı. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə hələ 1971-ci ildə Bakı şəhərindəki 2 saylı 8 illik internat məktəbinin bazasında Cəmşid Naxçıvanski adını daşıyan Hərbi Lisey yaradılmışdı. Naxçıvanda Hərbi Liseyin, 1999-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması ümummilli liderin adı ilə bağlıdır. Heydər Əliyevin ordu quruculuğu sahəsində Azərbaycan Respublikası və Türkiyə arasında əməkdaşlığın möhkəm əsasını qoydu və inkişaf etdirdi. Türkiyə ilə Azərbaycan arasında hərbi təhlükəsizlik əlaqələri tərəflər arasında qarşılıqlı hərbi təlim haqqında sazişin imzalanması ilə başlamışdır. Bundan sonra hərbi təlim, texniki və elmi əməkdaşlıq sazişi, Azərbaycan Respublikası Müdafiə Nazirliyi Qoşun Növləri İxtisas Məktəbinin təşkili və təliminə dair protokol, maddi-texniki təchizatın həyata keçirilməsi haqqında protokol, təmənnasız hərbi yardım haqqında saziş imzalandı.

Türkiyə hərbiçiləri Azərbaycan Ordusunda həm fiziki, həm də mənəvi hazırlıq mənasında çox mühüm işlər gördülər. Türkiyədən mütəxəssislərin Azərbaycana gələrək yüksək səviyyəli zabitlər hazırlanmasında iştirak etmələri haqqında göstəriş verildi. Türkiyə təhsil sahəsində Azərbaycan Ordusuna çox yaxşı yardımlar etsə də Heydər Əliyev Türkiyə ilə Azərbaycan arasında hərbi sahədə əməkdaşlığı yetərli hesab etmirdi. Qars müqaviləsinə Azərbaycanın təhlükəsizliyi baxımından çox önəm verən Heydər Əliyev Azərbaycanla Türkiyə arasında müttəfiqlik haqqında anlaşma olmasını düşünürdü. 2002-ci ildə Qarsda olarkən "Mən buraya gələndə soruşdum ki, Qarsda anlaşma harada imzalanıbdır. O binanı mənə göstərdilər. Biz Türkiyə hökuməti ilə danışacağıq, orada bir lövhə asılmalıdır ki, 1921-ci ilin oktyabr ayında burada, Qarsda belə bir anlaşma imzalanıbdır. Bu, mütləq olmalıdır. Çünki Qars anlaşmasının bu bölgə üçün, Azərbaycan və Türkiyə üçün çox böyük əhəmiyyəti var" - demişdir. 2002-ci ilin avqust ayında Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suvərin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə də Heydər Əliyev 1992-ci ilin fevral ayında Ankaraya gələrək Qars anlaşması haqqında mətbuata geniş məlumat verdiyini və bu anlaşmanın yenidən gündəmə gəldiyini bildirdi: "...Xatirimdədir ki, Moskvada buna çox mənfi reaksiya verdilər. Naxçıvanda bir dəfə televiziyaya baxırdım. Moskvadan Qars müqaviləsinə aid bir veriliş verdilər. Axırda isə bildirdilər ki, bu müqavilənin heç bir hüquqi qüvvəsi yoxdur, hətta Qars müqaviləsinin mətnini elə studiyadaca yandırdılar. Amma onu yandırmaq mümkün deyil, bu müqavilə o vaxt həmin dövlətlər tərəfindən imzalanıb, hər dövlət tərəfindən ratifikasiya olunub və ümumdünya, beynəlxalq təşkilatlarda qeydə alınıbdır, onu pozmaq mümkün deyildir".

Ümummilli liderin Türkiyə ilə hərbi müttəfiqlik arzusu 2021-ci il iyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsində təsdiqini tapdı. Bununla iki qardaş dövlət həmçinin 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinin hüquqi qüvvədə olduğunu dünya dövlətlərinə bəyan etdi.

Azərbaycan Ordusunun dünya standartlarına uyğun hərbi məktəbə, hərbi məzunlara, hərbi müəllimlərə malik olmasında Heydər Əliyev tərəfindən ciddi təməli qoyulan Azərbaycan-Türkiyə əlaqələrinin əvəzedilməz rolu olmuşdur. 2001-ci ilin avqust ayında Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyn Qıvrıqoğlunun Azərbaycana rəsmi səfəri zamanı "Türk ulduzları"nın da ölkəmizə gəlməsi, "Türk ulduzları"nın öz fəaliyyətlərini nümayiş etdirməsi xalqımıza çox böyük ruh yüksəkliyi verməklə yanaşı, Azərbaycanı istəməyən bəzi ölkələri qorxutdu.

Heydər Əliyev bildirirdi ki, Türkiyəsiz Cənubi Qafqazda sülh və təhlükəsizlik yaradıla bilməz. İstanbul zirvə görüşündə Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq paktının yaradılması çağırışı ilə ABŞ-a, Avropa Birliyinə daxil olan dövlətlərə, Rusiyaya, Türkiyəyə, Gürcüstana, Ermənistana və ATƏT-in marağı olan digər üzvlərinə müraciət edən Heydər Əliyev bildirirdi ki, irəli sürdüyü Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının yaranmasında İran da iştirak etməlidir, Türkiyəsiz isə bunları etmək mümkün deyildir. Azərbaycan xalqı Heydər Əliyevin Türkiyə ilə danışıqlarına haqlı olaraq çox ümid bəsləyirdi. Dahi şəxsiyyət bildirirdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin diplomatik yolla nizama salınmasında həm ATƏT-in üzvü olan dövlət kimi, həm də Ermənistanla böyük bir sərhədi olan bölgə dövləti kimi Türkiyənin iştirak etmək hüququ var.

1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü siyasi proseslərin əsasını qoydu. Bu gün ulu öndər Heydər Əliyev siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir, Azərbaycan xalqı Heydər Əliyev siyasəti ətrafında, onun ideyaları ətrafında daha da sıx birləşmişdir. Ümummilli Liderin vəsiyyətini yerinə yetirən Prezident İlham Əliyev iqtisadiyyatı və ordunu, dövlətlərarası münasibətləri daha da gücləndirdi, Ali Baş Komandanlığı altında Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsi nəticəsində Ermənistanı işğal etdiyi ərazilərdən qovdu. 19 sentyabr 2023-cü il tarixində isə antiterror əməliyyatı nəticəsində erməni terrorçuları məhv edildi. Ölkədə suverenlik təmin edildi. Bu gün bir çox məsələlərdə dünya dövlətləri Azərbaycanla hesablaşır. Azərbaycan Qafqazda aparıcı dövlətdir. Layihələr irəli sürür, layihələrdə lider dövlətdir, 120 dövlətin iştirak etdiyi Qoşulmama Hərəkatı kimi böyük təşkilata, 2024-cü ildə Bakıda keçirilən və uğurla nəticələnən COP 29-a sədrlik etdi.

**Ramilə DADAŞOVA,**
**siyasi elmlər doktoru, dosent,**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Beynəlxalq münasibətlər və geosiyasət şöbəsinin müdiri.**

Respublika .- 2025.- 10 may (№95).- S.14.